






Ünvan: Bakı, Həsən Əliyev küç.6
Azərbaycan Dövlət İqtisad
Universiteti, V mərtəbə
Tel: (+99412) 564 38 92
Email:
giyabi.elavetehsilunec@unec.edu.az
Internet səhifəsi: www.unec.edu.az


UNEC



# QİYABİ VƏ ƏLAVƏ TƏHSİL MƏRKƏZİ

UNEC

AZƏRBAYCAN
DÖVLƏT
İQTİSAD
UNİVERSİTETİ

## UNEC QİYABİ VƏ ƏLAVƏ TƏHSİL MƏRKƏZİ

UNEC Qiyabi və əlavə təhsil mərkəzi UNEC-in təhsilin bakalavriat səviyyəsində qiyabi təhsil forması və əlavə təhsilin istiqamətləri üzrə tədris prosesini həyata keçirən, həmçinin UNEC üzrə Yay semestrini təşkil edən struktur bölmədir. Mərkəz UNEC-in Elmi Şurasının 21 yanvar 2021-ci il tarixli iclasının qərarı əsasında UNEC-in Distant,qiyabi və əlavə təhsil mərkəzinin bazasında yenidən təşkil edilmiş və əsasnaməsi UNEC-in Elmi Şurasının 07 aprel 2021-ci il tarixli iclasının qərarı ilə təsdiq edilmişdir. Mərkəzin tərkibində Qiyabi təhsil şöbəsi və Əlavə təhsil şöbəsi fəaliyyət göstərir.



## QİYABİ TƏHSİL ŞÖBƏSİ

UNEC Qiyabi və əlavə təhsil mərkəzinin Qiyabi təhsil şöbəsi UNEC-də ali təhsilin bakalavriat səviyyəsində qiyabi təhsilalma forması üzrə təhsil proqramlarının və tədris planlarının tələblərinə uyğun olaraq tədris prosesini təşkil edən struktur bölməsidir. Qiyabi təhsil şöbəsinə hazırda aşağıda qeyd olunan 12 ixtisas üzrə tələbə qəbulu həyata keçirilməkdədir:

**050406 Maliyyə**
**050409 Mühasibat**
**050405 İqtisadiyyat**
**050504 Ekologiya**
**050807 Sosial iş**
**050401 Beynəlxalq ticarət və logistika**
**050408 Menecment**
**050404 Dövlət və bələdiyyə idarəetməsi**
**050407 Marketinq**
**050402 Biznesin idarə edilməsi**
**050616 İnformasiya texnologiyaları**
**050635 Qida mühəndisliyi**

## ƏLAVƏ TƏHSİL ŞÖBƏSİ

UNEC Qiyabi və əlavə təhsil mərkəzinin Əlavə təhsil şöbəsi UNEC-də əlavə təhsilin istiqamətlərinə qəbul prosesini və əlavə təhsilin istiqamətləri üzrə təhsil prosesini tədris planlarının tələblərinə uyğun olaraq təşkil edir, təhsilalanların təhsil proqramlarında nəzərdə tutulmuş zəruri bilik, bacarıq və vərdişlərə malik ola bilmələri üçün müvafiq şəraiti, həmçinin, UNEC-də Yay semestrinin təşkili və keçirilməsini təmin edir.

### Təkrar ali təhsil üzrə mütəxəssis hazırlığı və qəbul həyata keçirilən ixtisaslar

Təkrar ali təhsil ilkin baza peşə-ixtisas təhsili proqramı ilə yenidən əldə ediləcək ixtisasın baza təhsil proqramı arasındakı fərq bir tədris ilinə hesablanmış saatdan çox olduqda mütəxəssislərə verilən əlavə təhsil növüdür. Əvvəl aldığı ixtisasın baza proqramında öyrənilmiş fənlərin məzmunu yeni almaq istədiyi əlavə ixtisasın təhsil proqramına daxil olan hər hansı fənnin məzmununa uyğun olduqda tələbə həmin fənlər üzrə məşğələlərdən və attestasiyadan azad olunur. Təkrar ali təhsil üzrə proqram və tədris planı əsasında ali təhsilini müvəffəqiyyətlə başa vuranlara bakalavr dərəcəsi və ali təhsil haqqında diplom verilir.Mərkəzdə aşağıda qeyd olunan ixtisaslar üzrə təkrar ali təhsilə qəbul həyata keçirilir:

**•050406 Maliyyə**
**•050409 Mühasibat**
**•050405 İqtisadiyyat**
**•050401 Beynəlxalq ticarət və logistika**
**•050410 Statistika**
**•050408 Menecment**
**•050404 Dövlət və bələdiyyə idarəetməsi**
**•050402 Biznesin idarə edilməsi**
**•050407 Marketinq**
**•050807 Sosial iş**
**•050504 Ekologiya**
**•050616 İnformasiya texnologiyaları**
**•050615 İnformasiya təhlükəsizliyi**
**•050509 Kompüter elmləri**
**•050638 Sənaye mühəndisliyi**
**•050606 Ekologiya mühəndisliyi**
**•050635 Qida mühəndisliyi**
**•050622 Maşın mühəndisliyi**
**•050623 Materiallar mühəndisliyi**
**•050619 Kommunikasiya sistemləri mühəndisliyi**
**•050607 Elektrik və elektronika mühəndisliyi**
**050306 Dizayn (sahələr üzrə)**

### Təkrar ali təhsilə onlayn qəbul

UNEC-də təkrar ali təhsil almaq üçün sənədlərin qəbulu ancaq elektron qaydada həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan sənədləri elektron qaydada təqdim edir və müvafiq tələblərə cavab verdikləri halda, imtahansız təkrar ali təhsil almaq hüququnu qazanırlar. Təkrar ali təhsil almaq istəyənlər aşağıdakı sənədləri elektron formada təqdim etməlidirlər:

- Rektorun adına ərizə;
- Ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);
-3x4 sm ölçüdə fotoşəkil;
- Şəxsiyyət vəsiqəsinin surəti.

Təkrar ali təhsilə müraciət aşağıdakı internet linki vasitəsi ilə həyata keçirilir:

http://www.kabinet.unec.edu.az



## Yay semestrinin təşkili

UNEC-də Yay semestrinin təşkili və keçirilməsini təmin edir, bu prosesdə fakültə, məktəb və mərkəzlər, həmçinin universitetin müvafiq strukturları arasında koordinasiyanı təmin edir. Yay semestri aşağıdakı məqsədlərlə təşkil olunur:

**- akademik borcların ləğv edilməsi;**
**- fənlərin prerekvizitliyi gözlənilməklə, humanitar fənlər bölümünə daxil olan və ali təhsil müəssisəsi müəyyən edilən seçmə fənlərin kreditlərinin qazanılması;**
**- müvəffəqiyyət qazanılan fəndən qiymətin yüksəldilməsi;**
**- ali təhsil müəssisəsinin təklif etdiyi ayrı-ayrı fənlər üzrə digər ali təhsil müəssisələrinin tələbələrinə müvafiq kreditlər qazanmasına şəraitin yaradılması.**